Əliyeva Leyla Xudadat qızı

# TƏHSİL MENECMENTİNİN FORMALAŞMASININ İCTİMAİ-TARİXİ VƏ ELMİ-NƏZƏRİ ƏSASLARI

XX əsrin əvvəllərində iqtisadiyyatın sürətlə inkişafı, rəqabətin artması, istehsalın səmərəliliyinin yüksəldilməsi müəssisələrin elmi idarə olunmasına və idarəetmə prosesində səmərəli prinsip, funksiya və metodlardan istifadəsinə zərurət yaratdı. Bu zərurətdən irəli gələrək idarəetmə spesifik fəaliyyət forması kimi, elmi tədqiqatların obyektinə çevrildi.

Amerikan alimi Frederik Vinslo Teylor 1911-ci ildə apardığı fundamental tədqiqatlar əsasında "Elmi menecmentin prinsipləri" kitabını nəşr etdirmişdir. Teylor məhsuldarlığın artırılmasını rəhbər və işçilərin peşəkarlığından, səriştəliliyində görürdü. Əməyin elmi təşkili və planlaşdırılması, əlavə intellektual və fiziki qüvvə sərf etmədən əməyin stimullaşdırılması məhsuldarlığın artmasına səbəb olur. O, işçilərin maddi maraqlandırılmasını əsas vasitə kimi qeyd edərək, əməyin stimullaşdırılmasını fərdi əməyə görə aparmağı təklif edirdi. Onun üçün istehsalın səmərəliliyinin əsas meyarı kimi, məhsulun maya dəyərinin aşağı salınması çıxış edirdi. Bu nəzəriyyə "elmi menecment" və ya "elmi idarəetmə" məktəbi kimi tanınır.

Ümumiyyətlə, idarəetmə fikrinin, praktikasının müxtəlif mərhələlərində aşağıdakı elmi istiqamətləri və idarəetmə məktəblərini qeyd etmək olar:

**Elmi idarəetmə məktəbi (1885-1920-ci illər).**

- İdarəetmə vəzifələrinin daha səmərəli həlli üsullarını tapmaq üçün elmi analizdən istifadə olunması.
- Vəzifələrin həlli üçün ən layiqli işçilərin seçilməsi və onların təliminin həyata keçirilməsi.
- Vəzifələrin uğurla yerinə yetirilməsi üçün, işçilərin lazım olan resurslar ilə təmin olunması.
- Məhsuldarlığın artırılması üçün, maddi stimullaşdırmadan müntəzəm və düzgün istifadə olunması.
- Planlaşdırmanın başqa işlərdən ayrılması.

**Klassik idarəetmə məktəbi (1920-1950).**

- İdarəetmə prinsiplərinin inkişafı.
- İdarəetmə funksiyalarının təsvir olunması.
- Təşkilatın idarə olunmasına sistemli yanaşma.

**İnsani münasibətlər və davranış elmi məktəbi (1930-1950).**

- Məhsuldarlığın və razılıq hissinin artırılması üçün şəxsiyyətlərarası münasibətlərin idarə olunması.
- Təşkilatın formalaşmasında və idarə olunmasında davranış, hər bir işçinin potensial imkanlarının tam istifadə olunmasına yönəlir.

**İdarəetmə elmləri məktəbi (1930 - və indiki dövrə qədər).**

- Modellərin hazırlanması və tətbiqi sayəsində mürəkkəb idarəetmə problemlərinin daha dərindən başa düşülməsi.
- Mürəkkəb vəziyyətlərdə qərar qəbul edən rəhbərlərə kömək üçün, kəmiyyət metodlarının inkişafı.

**İdarəetməyə kəmiyyət yanaşılması (1950 - və indiki dövr).**

- İdarəetmənin inkişafina riyaziyyatın, statistikanın, mühəndis elmlərinin təsiri.
- İdarəetmədə iqtisadi-statistik metodların formalaşması və tətbiqi.

Buna baxmayaraq Təhsilin idarə olunması elminin təşəkkülünü XIX əsrin birinci yarısında məktəbşünüaslıq elminin yaranma dövrü ilə hesab edilir. Bu dövrdə pedaqoqlardan K.D.Uşinski, N.F.Bunakov, N.İ.Proqov və b. təlim-tərbiyədən bəhs edən əsərlərində eyni zamanda məktəb işinin təşkilinin bu və ya digər məsələlərinə dair maraqlı fikir və tövsiyyələr irəli sürmüşlər. Qeyd edək ki, məktəbşünaslığın yaranması və inkişafında K.D.Uşinski, N.F.Bunakov və N.İ. Proqovun olduqca böyük rolu olmuşdur.

Məktəbşünaslıq XIX əsrin ikinci yarısından etibarən pedaqogikanın bir bölməsi kimi təşəkkül tapmağa başlamışdır. Bu dövrdə məktəb işinin təşkili məsələlərini əhatə edən, onun təşkilati-təsərrüfat fəaliyyətinə istiqamət verən ilk məktəbşünaslıq vəsaitləri hazırlanıb nəşr olunmuşdur.

1873-cü ildə P.Solonina xalq məktəblərinin tədris planı və proqramı, dərs cədvəli, məktəb üçün zəruri olan avadanlıqlar haqqında, bədən tərbiyəsi tapşırıqları və s. kimi məsələlərdən bəhs etmişdir.

K.D.Uşinski xalq məktəbinin təşkili və inkişafı, onlar necə olmalıdır, məktəbi harda və necə təşkil etmək lazımdır və s. kimi sualların cavabını aydınlaşdırmış, rəhbərlik məsələlərinə xüsusi diqqət vermişdir.

N.F.Bunakov məktəb valideyn münasibətlərinə xüsusi diqqət vermişdir. Onun fikrincə, məktəb hər bir valideyn qarşısında hesabat verməli, əhali arasında sistemli mədəni-maarif işi aparmalı, oğlanlarla qızlar birgə təhsil almalı, ehtiyacı olan uşaqlara məktəb maddi yardım göstərməlidir.

Məşhur rus pedaqoqu və cərrahı N.İ.Proqov məktəbdə tədris olunan fənlərin saat bölgüsünə dair cədvəl işləmiş, məktəbə rəhbərlikdə inzibatçılıq və təkbaşçılığın əleyhinə çıxmış və məktəbə kollegial rəhbərliyin əsas prinsiplərini işləmişdir.

Keçən əsrin 80-ci illərindən başlayaraq məktəbşünaslıq, məktəbin idarə olunması və s. ilə bağlı tədqiqatlar aparılmağa başlandı.

Məktəbşünaslığın inkişaf edib təkmilləşdirilməsində Azərbaycan pedaqoqlarından M.Mehdizadə, professor Y.Kərimov, əməkdar müəllim İ.Hacıyev, prof. N.Əhmədov, prof. Z.Qaralov, Ə.Kərbəliyev və başqalarının az xidməti olmamışdır.

XX əsrin 90-cı illərindən etibarən Məktəbşünaslıq daha geniş aspektdə tədqiqat obyektinə çevrildiyi üçün Təhsilin idarə olunması fənniylə əvəz olundu. Bu dövrdən etibarən pedaqoji kadr potensialının yenidən formalaşdırılmasına, rəhbər pedaqoji kadrların hazırlanmasına xüsusi diqqət yetirilməyə başlandı. Həmin dövrdə təhsil menecerlərinə olan ehtiyac əsas problem kimi meydana çıxmağa başlayır.

Bu səbəbdən 2004-cü ildən etibarən respublikada təhsil menecerlərinin hazırlanması prosesi tənzimlənməyə başlayır və Təhsil menecmenti fənninə diqqət artır.

Son illərdə təhsilin idarə olunması, təhsil menecmenti, təhsil meneceri ilə bağlı tədqiqatlar aparılmış və yeni əsərlər (R.Məmmədzadə, A.Abdullayev, F.Kərimova və başqaları) nəşr olunmuşdur.

Təhsilin idarə olunması fənninin başqa elm sahələri kimi bəhrələndiyi ilkin mənbələri vardır. Azərbaycan Respublikası Konstitusiyası, Azərbaycan Respublikası Təhsil haqqında Qanunu, bunlara müvafiq qəbul edilmiş qanunvericilik aktları, Azərbaycan Respublikası Prezidentinin fərman, qərar, nitq və çıxışları buraya daxildir.

Təhsilin idarə olunması fənni də milli zəminə, soykökə bağlılıq, milli əxlaqi, dini mənəvi və ümumbəşəri dəyələrə istinad edir. Təhsil müəssisəsinin idarə edilməsində və ona rəhbərlikdə islam əxlaqına, müqəddəs kitabımız olan "Qurani-Kərimə"ə, peyğəmbər kəlamlarına və digər mütərəqqi dini etiqadlara, xalq pedaqogikasına, ata-babalarımızın irs qoyub getmiş olduğu milli əxlaqi normalarına istinaq olunur.

Təhsilin idarə olunması fənni başqa elmlərlə sıx əlaqədə inkişaf edir. Onun yaxın əlaqədə olduğu elmlər əsasən, iqtisadiyyat, sosial pedaqogika və sosial psixologiya, sosiologiya, tibbi pedaqogika (valeologiya), pedaqogika nəzəriyyəsi və tarixi və s. daxildir.

Təhsilin idarə olunması fənnin iqtisadiyyatla yaxın əlaqədə olması müasir təhsilin və onun idarə edilməsi, təchizat-maliyyə işi, demoqrafik-coğrafi istiqamətləri, ölknin iqtisadi həyatı və imkanları ilə sıx bağlılığı iqtisadiyyatdan kənarda təsəvvür edilə bilməz. Təhsilin idarə olunmasının əsas funksiyalarından biri marketinqdir.

Təhsilin idarə olunması fənni sosial psixologiya və sosial pedaqogika ilə əlaqəsi çox genişdir. Təhsilin idarə olunmasında şəxsiyyətin cəmiyyətdə sosial fəallığının, vətəndaş yetkinliyinin, şəxsiyyətlərarası ünsiyyətinin, rəhbər-işçi münasibətlərinin düzgün tənzimlənməsində və real yollarının araşdırılmasında sosial psixologiya və pedaqogikanın normalarından istifadəyə zəruri ehtiyac var.

Təhsilin idarə olunması fənninin fizologiya və məktəb gigeyenası ilə əlaqəsi təhsil müəssisəsinin, sinif və auditoriyaların texniki avadanlıqlarla, laboratoriyaların işıq, istilik, hava tutumunun şagird sağlamlığına uyğunluğu və s. məsələlərlə bağlıdır.

## ƏDƏBİYYAT SİYAHISI


1. Abbasov A.B. Biznesin əsasları, Nurlan, Bakı, 2005
2. Bayramov H, Kəlbəliyev Ə., Təhsilin idarə edilməsinin əsasları, Bakı, 1998
3. Cabbarov R. Təhsilin idarəedilməsinin əsas məsələləri. Bakı, 2011
4. Cabbarov R. Təhsilin idarə edilməsi məsələləri. Bakı, Müəllim 2009
5. Məmmədzadə R.H və başqaları. Menecment, marketinq və təhsilin iqtisadiyyatı.Bakı: Müəllim, 2015.
6. Məmmədzadə R.H. və başqaları. Təhsilin idarəedilməsinin bəzi problemləri. Bakı. 2008
7. Mehrabov A. Müasir təhsilin metodoloji problemləri. Bakı, 2012.


**Açar sözlər: təhsilin idarəedilməsi, əməyin elmi təşkili, elmi idarəetmə, planlaşdırma, elmi əsaslar.**
**Ключевые слова: управление образованием, научная организация труда, научный менеджмент,**
**Key Words:** management in education, research organization, research management, planning, scientific foundations

## Социально-исторические и научно-теоретические основы формирования управления образованием

### Резюме

Формирование науки управления образованием считается периодом формирования школьной науки в первой половине XIX века. К. Д. Ушинский, Н. Ф. Бунаков и Н. И., в формировании и развитии школьной науки сыграли большую роль. Обучение началось в рамках педагогики, которая вошла во вторую половину XIX века. В течение этого периода были подготовлены и опубликованы первые школьные принадлежности, которые охватывают организацию школьной работы, и ее организационно-хозяйственная деятельность. В последние годы были проведены исследования по управлению образованием и менеджеру по образования. Такие авторы Р.Мамедзаде, А.Абдуллев, Ф.Керимов и другие работы можно упомянуть. В статье подробно рассматриваются эти вопросы.

Social-historical and scientific-theoretical foundations of forming management

Resume

Formation of science in the formation of a period of formation of a school science in the first half of the XIX century is taking shape. K. D. Ushinsky, N. F. Bunakov and N. I, in the forming and development of the school science, have thrown a big role. The teaching began in the pedagogy of the pedagogy, which moved into the middle of the twelfth century. In the given period, the first edition was prepared and published by the first children, who are organizing the organization of the school, and organizational-economic activity. In recent years, the company has been conducting training and management training. The author of this book is R.Mamedzade, A. Abdullaev, F.Kerimov and others. In the article it is widely regarded as a question.